KREDO

№ 17 (1273) 15 may 2025-ci il

S.16

# NATELLA NURUN "XAN QIZI NATƏVAN"I

Azərbaycan ədəbiyyatında qadın şairlərin məxsusi yeri vardır. Zamanın süzgəcindən arınıb, tarixin yaddaşına həkk olan zərif qələm sahiblərini ədəbi-mədəni hadisə hesab etmək doğru olar. Qadın şairlər ədəbiyyata fərqli məzmun gətirməklə ona zərafət, incəlik əlavə etmək iqtidarına malikdirlər. Azərbaycan poeziyasında Məhsəti Gəncəvi (1089-1160), Ağabəyim ağa (1780-1832), Heyran xanım (1790-1860), Xurşidbanu Natəvan (1832-1897), Qəmər bəyim Şeyda (1881-1933), Ümmügülsüm (1899-1944), Mirvarid Dilbazi (1912-2001), Nigar Rəfibəyli (1913-1984), Nurəngiz Gün (1938-2014) kimi hər biri məxsusi dəsti-xəttə sahib olan qələm sahiblərinin adlarını sadalamaqla bu siyahını daha da genişləndirmək mümkündür. Müasir zamanda oxucu heyranlığına səbəb olmaq, onu təəccübləndirməyi bacarmaq asan olmadığı kimi, yaddaşlarda qalmaq da xeyli çətindir. Həyatlarının ən çətin dönəmlərində qadın, ana, sevgi hisslərini unutmayan şairlərin layiqli davamçısı olmaq, çağdaş poeziyada özünəməxsus yer tutmaq cəsarət tələb edir. Yaradıcılığına nəzər saldığımız Natella Nur, sevərək addımladığı yolun nəbzini könülləri fəth edən misraları ilə tutmağı, ədəbi ictimaiyyətin diqqətini çəkməklə yanaşı ustad tənqidçilərdən xeyir-dua almağı da bacarmışdır: "Natella Nurun şeirləri və "Xan qızı Natəvan" poeması ilə tanış oldum. Hiss etdim ki, onun daxili aləmi şeir üstə köklənib, nədən yazırsa-yazsın, hissini duyğusunu gizlətmir. Onun şeirlərində nəzərə çarpan ən başlıca xüsusiyyət budur ki, sadə yazır, fikrini aydın şəkildə oxucuya çatdırır. Şeir dili anlaşıqlıdır, kələkötür sözlərə və ifadələrə meyl etmir". (Natella Nur, "Xan qızı Natəvan", poema və şeirlər, ön sözün müəllifi filologiya elmlər doktoru, tənqidçi Vaqif Yusifli, "Şair qəlbindən səslənən şeirlər", s.3)

Natella Nur "Xan qızı Natəvan" adlı poemanı sadə və axıcı misralarla oxucuya təqdim edir. "Xan qızı Natəvan" mayası duyğu və həzin ruhla yoğrulmuş tarixi bir poemadır. XIX əsrdə yaşayıb-yaratmış Xan qızının əzəmətli portretini canlandıran Natella Nur böyük məharətlə onun təbiətlə qurduğu təması qələmə alır. Müəllif misralarda canlanan mənzərənin füsunkarlığını, Xan qızının ruh və cisminin vəhdətindən doğan sevgisini təbiətə köçürməyi xüsusi ustalıqla bacarır. Poema Azərbaycanın "musiqi beşiyi" adlanan Şuşa şəhərinin vəsfindən sonra Qarabağ xanı Mehdiqulu xanın ailəsində Xan qızı Xurşidbanunun həyata göz açması ilə nəzmə çəkilir:

*Natella Nur*



**Xan Qızı Natəvan**

*Poema və şeirlər*

İbrahim xanın nəvəsi,
Açdı gözün, gəldi səsi.
Göydə ulduzlar parladı,
Qızcığazı salamladı.

Xanın yeganə övladı olan Xurşudbanunun aldığı mükəmməl təhsil, bir neçə əcnəbi dilə sahib olması, onun atasının vəfatından sonra varis seçilməsi ilə nəticələnir. Müəllif Xan qızının dövlət xadimi olması ilə yanaşı onun səxavətli, mərhəmətli, yaradıcı bir xanım olduğunu mirvari misralara ustalıqla köçürür. Onun sehirli əməllərindən boy alıb gözəlləşən Şuşa şəhəri göz önündə canlanır.

Poemada gözəlliyi ilə dillərdə dastan olan Xan qızı Dağıstan xalqının igid oğlu knyaz Xasay Xanla ailə qurur. Bu izdivacdan doğulan övladları haqqında müfəssəl məlumat hadisələrin gedişatını daha da oxunaqlı edir. Natella Nur daha sonra Xan qızının Xasay Xanla Tiflisdə yaşadığı zaman onun xəstə yatmasını haqlı olaraq vətəninə, torpağına olan həsrət ilə əlaqələndirir:

Xan Qızı xəstə yatırdı,
Nəfəs yolu daralırdı.
Havasını götürmədi,
Xəstəlik aman vermədi.

Qarabağa qayıdan Xan Qızı bir müddət sonra ailəsinin təkidi ilə Dağıstana geri dönən Xasay Xandan ayrılır. Müəllif Xan Qızının keçirdiyi iztirab və hiss-həyəcanları erməni şərrindən nəsibini alan Knyaz Xasayın intihar səhnəsində bir daha yaşadır. Əsər boyu Xan Qızının dövlət başçısı olmasına baxmayaraq, təxyir-libas olub şəhəri, kəndləri gəzməsi təsvirinin şahidi oluruq. Əhalinin üzləşdiyi çətinlikləri onların öz dillərindən eşitməsi müəllif tərəfindən müstəsna hal kimi qiymətləndirilir. Onların yaşamlarını asanlaşdıran bütün məsələləri öz üzərinə almaqla Xan Qızı xalqın sevimlisi olduğunu bir daha sübuta yetirir. Əsərin başqa bir hissəsində Natella Nur Xan Qızının övladının vəfat səhnəsini, ana qəlbinin dərin iztirabını göz önündə canlandırır. Xan Qızı Natəvanın kədərə, qəmə bürünmüş cismi, həyatının bütün iztirabları, qüssəsi onun çöhrəsində əks olunur. Poemada cərəyan edən hadisələrin daş yaddaşa, soy-kökə əsaslanması onun tarixi reallığını bir daha təsdiq edir.

Natella Nur poemanın yazılma səbəbini Xan Qızına olan mənəvi minnətdarlıq, ruhun rahatlığı, birgəliyi kimi açıqlayır. Əsər yazılan vaxt müəllif özünü sanki o zamanda, o məkanda hiss edib, mənəvi cəhətdən müasir həyatla əlaqəsini kəsib. Xan Qızının ölüm səhnəsini qələmə alan zaman isə sanki onu öz cismində yaşayıb:

Göydə parlaq ulduz söndü,
Buludlar göz yaşı tökdü.
Ay baxıb köksün ötürdü,
Dan yeri qəmlə söküldü.

Gözəl mənzərəni seyr edən oxucu sonda müəllifi tanımadan onunla həmsöhbət olub, böyük minnətdarlıq hissi ilə ona təşəkkür etməyi özünə borc bilir.



*Əsmər HÜSEYNOVA,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA-nın Ədəbiyyat İnstitutu,*
*ədəbi tənqid şöbəsi, aparıcı elmi işçi*